

Maraqlı həmsöhbətdir. Sənətinə məhəbbəti, vəzifəsinə məsuliyyətilə seçilir. El-obada xüsusi nüfuza malikdir. Tabeliyindəkilərə qarşı diqqətli və qayğıkeşdir. Bütövlükdə o, ətrafda baş verənlərə etinasız yanaşmır. Bu və ya digər məsələyə özünün konkret, səmimi münasibətini bildirir. Başladığı işi yarımçıq qoymağı xoşlamır. Göstərilən etimadı doğrultmaq üçün bütün imkan və bacarığından səmərəli yararlanır. Dostluqda sadiq, etibarlıdır...

# Məsuliyyət və yaradıcılıqla

**Müsahibimiz Bərdə rayonundakı Divanlı Kənd Uşaq Musiqi Məktəbinin direktoru Fəqani Əliyevdir. Əliyev Fəqani Novruz oğlu 1973-cü il yanvarın 4-də Bərdə rayonunun Güloğlular kəndində anadan olub. Həmin kənddə orta məktəbi bitirib.**

Gəncə şəhər Q.Hüseynli adına musiqi texnikumunun xalq çalğı alətləri şöbəsinin qarmon ixtisası üzrə məzunudur.

1995-2006-cı illərdə Bərdə şəhər 3 saylı uşaq musiqi məktəbində müəllim işləmişdir. 2005-ci ilin dekabrından Divanlı Kənd Uşaq Musiqi məktəbinin direktorudur.

Söhbət zamanı Fəqani müəllim kollektivin işindən, rəhbərlik etdiyi musiqi ocağının keçdiyi yoldan danışdı:

- Məktəbimiz 1996-cı ildə fəaliyyətə başlayıb. O zaman burada 40 nəfər şagird oxuyub. Onların təlim-tərbiyəsi ilə 10 nəfər müəllim məşğul olub.

Hazırda bu göstərici əvvəlki illərlə müqayisədə fərqlidir. İndi 72 nəfər müəllimin çalışdığı bu məktəbdə 229 nəfər şagird fortepiano, tar, qarmon, nağara və səs ixtisasları üzrə təhsil alır.

Kollektivin ixtiyarında 15 sinif otağı və 1 geniş zal var. Məktəb lazımi musiqi alətləri, müvafiq inventar və avadanlıqla təmin olunub.

Məktəb respublika və rayon səviyyəli müsabiqəyə fəal qoşulur, rayon tədbirlərində yaxından iştirak edir. "N" saylı hərbi hissəyə vaxtaşırı gedişlər edilir, əsgər və zabitlər qarşısında rəngarəng konsert proqramları aparılır.

Məktəbin müəllimləri daim uşaqların qayğısına qalır, onların inkişafı, musiqimizin incəliklərinə yiyələnmələri üçün əllərindən gələni əsirgəmirlər.

Hazırda burada çalışan müəllimlərin 20 faizdən çoxu vaxtı ilə bu məktəbdə musiqi təhsili almış adamlardır. İndi onlar müəllimləri ilə çiyin-çiyinə çalışırlar.

**Müəllimlərdən Sücayət Nuriyeva (fortepiano), Yaşar Məmmədov (səs), Vüsalə Məhərrəmova (fortepiano), Qara Məmmədov (tar), Vəfa Nəsirova (fortepiano), Cavad Qasımov (qarmon), İlhamə Baxışova (fortepiano), Zənurə Behbudova (nəzəriyyə) və başqaları vəzifələrinin öhdəsindən daha bacarıqla gəlirlər.**

**Tural**